# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 yanvar 2025-ci il, çərşənbə axşamı
№ 001 (6829)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



## Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik!

Bax səh. 3



## T.Y.Budaqovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bax səh. 4




## Trampın "sülh planı" reallaşır?

### Ukrayna atəşkəsə razıdır, amma...

Bax səh. 7

## Mühüm mərhələ başladı

Bax səh. 4



## Avropanın Şərq planları...

### Soyuq Qərbin "isti Dəməşq" arzuları...

Bax səh. 7



## Sosial prinsipə əsaslanan tarif tənzimlənməsi

Bax səh. 4

# Hörmətli seçicilər!

Ulu Öndər Heydər Əliyev yolu ilə inamla və uğurla inkişaf edən, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və bir günlük lokal xarakterli antiterror əməliyyatında möhtəşəm qələbələr qazanaraq öz ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olan ölkəmizdə 2025-ci il yanvarın 29-da bələdiyyə seçkiləri keçiriləcəkdir.

Siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası (YAP) 1999, 2004, 2009, 2014 və 2019-cu illərdə keçirilmiş bələdiyyə seçkilərində fəal iştirak edərək inamlı qələbələr qazanmışdır. Xalqın etimadını layiqincə doğruldan YAP növbəti bələdiyyə seçkilərinə də yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılır.

Sonuncu bələdiyyə seçkilərindən ötən dövr ərzində ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı təmin olunmuş, ümumi daxili məhsul istehsalı 11,5 faiz, qeyri neft-qaz sektorunda yaradılmış əlavə dəyər 25,2 faiz, qeyri neft-qaz sənaye məhsullarının istehsalı 1,6 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 1,6 dəfə, strateji valyuta ehtiyatlarının həcmi 1,4 dəfə artmış, əsas məhsullar üzrə ərzaq təhlükəsizliyi təmin olunmuşdur. Əldə olunmuş inkişafın nəticəsidir ki, əhalinin sosial rifahı əhəmiyyətli şəkildə yüksəlmiş, minimum aylıq əməkhaqqı 1,4 dəfə, ehtiyac meyarının həddi 2,0 dəfə, yaşayış minimumunun məbləği 1,6 dəfə, orta aylıq nominal əməkhaqqı 1,6 dəfə artmış, yoxsulluq səviyyəsi 6,2 faizdən 5,2 faizə, işsizlik səviyyəsi 7,2 faizdən 5,3 faizə enmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin tərəqqisinə xidmət edən məqsədyönlü və uzaqgörən siyasətinin təməlində çoxşaxəli islahatların həyata keçirilməsi dayanır. Ardıcıl xarakter daşıyan institusional islahatlar bütün sahələrdə davamlı yüksəlişi təmin etməklə bərabər, bələdiyyə institutunun da inkişafı üçün münbit zəmin formalaşdıraraq geniş imkanlar və yeni perspektivlər yaratmışdır.

Ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atılmış, o cümlədən zəruri qanunvericilik bazası formalaşdırılmış, bələdiyyələrin statusu, bələdiyyə qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunmuş, bu sahədə qazanılmış müsbət təcrübənin yayılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

İndiyədək bələdiyyələr bir çox mühüm layihələrin həyata keçirilməsinə, o cümlədən müasir infrastruktur quruculuğuna, əhalinin məşğulluğunun təmin olunmasına və sosial məsələlərin həllinə önəmli töhfələr vermişlər.

Yerli özünüidarəetmə orqanlarında təmsil olunan YAP üzvləri xalqın etimadını böyük məsuliyyət kimi qəbul edərək bu sahədə konkret nəticələrin əldə olunmasına hesablanan məqsədyönlü fəaliyyət həyata keçirirlər.

Bununla bərabər, yerli özünüidarəetmənin təkmilləşdirilməsi, eləcə də əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması naminə qarşıda mühüm vəzifələr durur. Xalqın iradəsi əsasında yeni formalaşacaq bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri də öz fəaliyyətlərini məhz bu hədəflər istiqamətində quracaqlar.

Dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikrini əsas götürən Yeni Azərbaycan Partiyası ötən dövrün təcrübəsini nəzərə almaqla yeni dönəmin çağırışlarını rəhbər tutaraq bu sahədə məqsədyönlü fəaliyyət həyata keçirmək əzmindədir.

İnanırıq ki, 2025-ci il yanvarın 29-da keçiriləcək növbəti bələdiyyə seçkiləri Ulu Öndər Heydər Əliyevin dəyərli mənəvi-siyasi mirası olan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyasına xalqımızın inam və etimadının növbəti bariz nümunəsi olacaqdır.

Hər birinizi seçkilərdə fəal iştirak edərək müasir, qalib və qüdrətli Azərbaycanın vətəndaşlarının yüksək rifahı naminə ümumxalq partiyasının - Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırırıq.

# AZƏRBAYCANDA BƏLƏDİYYƏ İNSTİTUTU: REALLIQ VƏ PERSPEKTİVLƏR

Dünyada demokratik idarəçiliyin əsas atributlarından sayılan bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yaşayan sakinlər tərəfindən yerli seçkilər əsasında formalaşdırılan kollegial özünüidarəetmə formasıdır.

Azərbaycanda bələdiyyə institutunun təsis edilməsi və bələdiyyələrin fəaliyyətini tənzimləyən hüquqi bazanın formalaşdırılması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin müəllifi olduğu və 12 noyabr 1995-ci il tarixində keçirilən ümumxalq səsverməsi - referendum nəticəsində qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında bələdiyyələrin hüquq və vəzifələri təsbit edilmişdir.

Heydər Əliyevin müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin hüquqi əsaslarını müəyyənləşdirən "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə maliyyəsinin əsasları haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında", ümumilikdə 22 qanun qəbul olunmuş, bələdiyyələrin fəaliyyətinin tənzimlənməsi ilə bağlı 200-dən artıq normativ hüquqi akt qüvvəyə minmiş, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə iş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi (hazırda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzi) yaradılmışdır.

1999-cu il dekabrın 12-də ölkəmizdə ilk bələdiyyə seçkiləri keçirilmişdir. Heydər Əliyev bu seçkilərlə bağlı xalqa müraciətində demişdir: "Biz Azərbaycanda qeyri-dövlət, tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu, həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda, ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaranmasının göstəricisidir".

Ulu Öndər Heydər Əliyevin yerli özünüidarəetmənin inkişafı ilə bağlı müəyyən etdiyi siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının çoxşaxəli islahatlar kursunun mühüm tərkib hissəsi kimi həyata keçirilən ardıcıl tədbirlər bələdiyyə institutunun təkmilləşdirilməsinə də öz töhfəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü ildə imzaladığı "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" qanun bələdiyyələrin fəaliyyətinin təkmilləşməsinə, yerli özünüidarəetmənin səmərəliliyinin yüksəldilməsinə, nəticə etibarilə, əhaliyə xidmətlərin keyfiyyətinin artırılmasına hədəflənmişdir.

Bütün vətəndaşların yüksək sosial rifahının təmin edilməsi prioritetinə uyğun olaraq yerlərdə resursları səfərbər etməklə iqtisadi dəyər yaradan mənbələrin hərəkətə gətirilməsi qarşıda duran başlıca vəzifələrdəndir. Yüksək həyat standartlarını formalaşdırmaq üçün yerli özünüidarəetmə orqanlarının mövcud imkanlardan səmərəli istifadə etməsi, o cümlədən dövlət-özəl təşəbbüskarlığı zəncirinə qoşulması, istehsal və xidmət sahələrinin qurulması, ailə-kəndli təsərrüfatlarının, fərdi sahibkarlığın inkişafına dəstək verməsi aktual çağırışlar sırasındadır.

Dövlət başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi prioritetlər öz əksini tapmışdır ki, bu hədəflərin yerinə yetirilməsində yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür.

Milli prioritetlərimizdən biri də Böyük Qayıdışın təmin edilməsidir ki, hazırda müvafiq Dövlət Proqramı çərçivəsində ərazilərin minalardan təmizlənməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, iqtisadi fəaliyyətin bərpası və digər istiqamətlərdə ardıcıl tədbirlər görülür. Azərbaycan dövlətinin öz iqtisadi gücü hesabına, müasir texnologiya və innovasiyalardan istifadə etməklə həyata keçirdiyi nəhəng bərpa-quruculuq işləri, o cümlədən yol-nəqliyyat, enerji təminatı və digər infrastruktur layihələrinin reallaşdırılması keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmasına, dayanıqlı məskunlaşmanın və müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaratmaqla bərabər, sosialyönümlü iqtisadiyyatın inkişafı baxımından da olduqca əhəmiyyətlidir.

İndiyə qədər işğaldan azad edilmiş ərazilərdə müasir şəhərsalma konsepsiyaları əsasında onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və artıq bir sıra şəhər, kənd və qəsəbələrdə 10 min nəfərə yaxın keçmiş məcburi köçkünün daimi yaşayışı təmin edilmişdir.

Əhalinin tam məskunlaşmasından sonra işğaldan azad edilmiş ərazilərdə də yerli özünüidarəetmə orqanları formalaşdırılacaq və gələcəkdə bələdiyyələrin səmərəli və məqsədyönlü fəaliyyətinin təmini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafına və ölkə iqtisadiyyatına reinteqrasiyasına mühüm töhfə verməklə yanaşı, vətəndaşların yerli özünüidarəetmədə fəal iştirakının təşviqinə də öz müsbət təsirini göstərəcəkdir.

Bələdiyyələr ərazinin sosial-iqtisadi potensialından istifadə etməklə müvafiq bölgənin inkişafını və əhalinin rifahını yüksəltmək imkanlarına malikdir. Yeni mərhələdə bir sıra Dövlət proqramları çərçivəsində bələdiyyələrin öz ərazilərində sahibkarlıq üçün münbit şərait yaratması, öz xidmət sahələrini, bələdiyyə müəssisələrini, təsərrüfat subyektlərini təşkil etməsi, turizm sektorunu əhatə edən layihələr icra etməsi nəzərdə tutulur ki, bu da region iqtisadiyyatının dinamik inkişafına dəstək kimi olduqca əhəmiyyətlidir. Bütün bunlar yeni iş yerlərinin açılması, əhalinin rifahının yüksəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi, ixracyönümlü məhsulların istehsalının artırılması, bütövlükdə, bölgələrin sosial-iqtisadi inkişafına təkan verəcəkdir. Eyni zamanda, regionlarda bələdiyyələrin iştirakçılığı ilə ekoloji təmiz texnologiyaların tətbiqi və mövcud resurslardan istifadə etməklə "yaşıl layihə"lərin icrası da olduqca önəmli vəzifələrdəndir.

# ƏSAS HƏDƏFLƏRİMİZ

**İnstitusional islahatların davamlılığının və maliyyə müstəqilliyinin təmin olunması:**

Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması məqsədilə islahatların davam etdirilməsi;

Bələdiyyə institutlarının idarəetmədə rolunun gücləndirilməsi;

Bələdiyyə qərarlarının icraçılıq səviyyəsinin yüksəldilməsi üçün nəticə əsaslı inzibati tədbirlərin həyata keçirilməsi;

Bələdiyyələrin beynəlxalq əməkdaşlığının təmin olunması, yerli özünüidarəetmə sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi;

Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarının genişləndirilməsi, dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması;

Bələdiyyə gəlirlərinin artırılması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi, bələdiyyələrə məxsus ictimai iaşə və sosial obyektlərin yaradılması.

**Dövlət-bələdiyyə-özəl tərəfdaşlığının gücləndirilməsi:**

Dövlət-özəl təşəbbüskarlığı platformasına bələdiyyələrin daha əhatəli cəlb edilməsi imkanlarının reallaşdırılması;

Kənd təsərrüfatı, sənaye, nəqliyyat və digər sahələrdə bələdiyyə və dövlət orqanları arasında əməkdaşlığın genişləndirilməsi;

Yerli xammal və əmək ehtiyatlarından səmərəli istifadə sahəsində bələdiyyələrin iqtisadi-sosial təşəbbüskarlığının artırılması, mikro və kiçik sahibkarlıq subyektlərinin, ailə-kəndli təsərrüfatlarının inkişafına yerli özünüidarəetmə orqanları səviyyəsində dəstək verilməsi;

Turizm şirkətləri ilə bələdiyyələr arasında qarşılıqlı əməkdaşlığın qurulması, kənd turizminin inkişafı üçün birgə layihələrin icrası;

Əhalinin rifahının yaxşılaşdırılması məqsədilə bələdiyyə assosiasiyaları ilə biznes və özəl kommersiya qurumları arasında əlaqənin qurulması.

**Yerli sosial-iqtisadi və ekoloji layihələrin reallaşdırılması:**

Sosial infrastrukturun bərpası və yenidən qurulmasında yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin gücləndirilməsi;

Kənd və qəsəbə məktəblərinin əsaslı təmiri təşəbbüslərində fəal iştirakçılığın təmin olunması;

Uşaq bağçaları, körpələr evlərinin təmir və bərpası, tibb məntəqələrinin yaradılması işində dövlət qurumları ilə əlaqələndirilmiş işin təşkili;

Əhalinin keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması, suvarma suyuna olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlərin görülməsi;

Yerli əhəmiyyətli yolların əsaslı təmiri, kənd və qəsəbələrin yol infrastrukturunun müasirləşdirilməsi;

Elektrik enerjisi xətlərinin yenilənməsi, keyfiyyətli rabitə və yüksəksürətli internetin təmini üçün tədbirlərin görülməsi;

Yerlərdə genişmiqyaslı abadlıq işlərinin həyata keçirilməsi, "Təmiz şəhər" və "Abad məhəllə" təşəbbüslərinə dəstəyin davam etdirilməsi;

"Yaşıl dünya" və təmiz ətraf mühit naminə məqsədyönlü fəaliyyətin həyata keçirilməsi, ekoloji çirklənmələrin qarşısının alınması yönündə layihələrin reallaşdırılması;

Tarixi və mədəniyyət abidələrinin qorunub saxlanılmasına diqqətin artırılması;

Əhalinin layiqli məşğulluğuna, hər kəsin ixtisas, bilik və bacarığına uyğun işlə təmin olunmasına dəstək verilməsi.

**Bələdiyyələrin sosial məsuliyyətinin, yerli özünüidarəetmədə vətəndaşların rolunun, hesabatlılıq və şəffaflığın artırılması:**

Həssas qrupdan olan insanlarla, o cümlədən aztəminatlı ailələr, qazilər və şəhid ailələri ilə sıx ünsiyyətin davamlı şəkildə təmin edilməsi, digər sosial tədbirlərin həyata keçirilməsi;

Gənclərin faydalı işlərə cəlb edilməsi, onların fiziki və mənəvi inkişafının təmini məqsədilə təşəbbüslərin irəli sürülməsi və layihələrin reallaşdırılması;

Yerlərdə insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün müvafiq infrastrukturun yaradılması istiqamətində əməli tədbirlərin görülməsi;

Müxtəlif sahələri əhatə edən layihələrin icrasında yerli sakinlərin iştirakçılığının artırılması;

Yerli əhəmiyyətli məsələlərə dair vətəndaşların rəyinin öyrənilməsi, müvafiq sorğuların keçirilməsi, qiymətləndirmənin aparılması;

Qarşılıqlı inam hissinin gücləndirilməsi məqsədilə yerli icra hakimiyyəti orqanları ilə vətəndaş cəmiyyəti arasında əlaqələrin möhkəmləndirilməsinə, bu yöndə irəli sürülən təşəbbüslərin reallaşdırılmasına dəstək verilməsi;

Yerlərdə vətəndaş fəallığının yüksəldilməsinin təşviqi məqsədilə vətəndaş cəmiyyəti təsisatlarının layihələrinin həyata keçirilməsinə dəstək göstərilməsi;

Bələdiyyə vergiləri barədə əhalinin maarifləndirilməsi, bələdiyyələrin gəlir və xərclərinə dair hesabatlılığın təmin edilməsi;

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsində vətəndaş iştirakçılığının yüksəldilməsi;

Yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə əhalinin müntəzəm olaraq məlumatlandırılması.

# Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik!

## İlham Əliyev: Həyatın istənilən şəraitində sizin arxanızda güclü Azərbaycan dövləti dayanır!







Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: "Dekabrın 25-də Bakı-Qroznı marşrutu ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Qroznı şəhərinin yaxınlığında kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və demək olar ki, idarəolunmaz vəziyyətə salınıb. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Pilotların və bütün ekipaj üzvlərinin fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Mənim Sərəncamımla ekipaj üzvləri ilə vida mərasimindən sonra ekipajın üç üzvü-iki pilot və bir bələdçi Milli Qəhrəman adına layiq görülüb, iki bələdçi isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Əgər pilotlar peşəkarlıq, qəhrəmanlıq göstərməsəydilər, bu qəzada sağ qalan olmazdı".

Hadisə ilə bağlı Dövlət Komissiyasının yaradıldığını, cinayət işinin açıldığını və ilkin araşdırma haqqında məlumatın olduğunu diqqətə çatdıra dövlətimizin başçısı bildirib ki, istintaqın başa çatmasından sonra tam məlumat Azərbaycan ictimaiyyətinə çatdırılacaq: "Qroznı şəhərində "kavyor əməliyyatı", yəni, hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib. Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Adətən hər hansı bir ölkənin hava məkanında təhlükə yaranırsa, dərhal o ölkənin hava məkanı bağlanır. Bu, bütün ölkələrdə var və bunun müxtəlif adları var. Rusiyada buna "kavyor əməliyyatı" deyirlər. Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi. Dərhal hava məkanı bağlanmalıydı və təyyarə geri dönməli idi. Onu da bildirməliyəm ki, baş vermiş qəzadan təqribən 10 gün əvvəl oxşar hadisə Qroznı şəhərinin yaxınlığında baş vermişdi. AZAL-a məxsus təyyarə yarı yoldan geri dönmüşdü. Nə üçün bu dəfə təyyarə ekipajına xəbərdarlıq edilməmişdi? Bunu təbii olaraq istintaq göstərəcək. Mən bir daha demək istəyirəm ki, bizdə olan məlumat həqiqətə əsaslanır. Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar".

Ekipaj üzvlərinin qəhrəmanlığından söz açan Prezident İlham Əliyev deyib: "Bu, doğrudan da böyük fədakarlıqdır. Mən bildirdim, çox güman, pilotlar bilirdilər ki, bu qəzadan sağ çıxa bilməyəcəklər. Onlar təcrübəli pilotlar idi, idarəolunmaz vəziyyətdə olan təyyarəni məhz öz peşəkarlıqları nəticəsində bir yolla məkana yetişdirə bilmişdilər və qəza enişi olsa da, təyyarəni endirə bilmişdilər. Ekipajın digər üzvləri - bələdçilər də soyuqqanlılıq göstərmişlər. Təyyarədə xaosun yaranmaması üçün böyük cəsarət göstərmişlər. Onlar da görürdülər, bilirdilər ki, onları nələr gözləyir. Yəqin, heç ümid etmirdilər ki, bu vəziyyətdən sağ-salamat çıxa bilərlər. Belə vəziyyətdə özünü təmkinlə, soyuqqanlılıqla, cəsarətlə aparmaq, əlbəttə ki, bir daha onların yüksək keyfiyyətlərini göstərir. Xüsusilə nəzərə alsaq ki, bələdçilərin ikisi qadın idi".

Dövlətimizin başçısı "Qara qutu"ların açılması prosesinə başlandığını diqqətə çatdırıb və qeyd edib ki, bizim təkidimizlə bu proses Braziliyada həyata keçirilir: "Biz bütün təkliflərə və təkidlərə baxmayaraq Dövlətlərarası Aviasiya Komitəsinin "qara qutu"ları açmasına qəti etiraz etmişdik. Çünki burada obyektivlik sual altına düşə bilərdi. Burada hüquqi dillə desək, maraqlar toqquşması ola bilərdi. Ona görə Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada "qara qutu"ların təhlilinə başlanılmışdır və yəqin ki, yaxın gələcəkdə bu barədə də məlumat veriləcək. Təbii ki, bu günə qədər hələ də açıq olmayan bütün məsələlər də üzə çıxacaq. Gün kimi aydın olan məsələlər ondan ibarətdir ki, təyyarə radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bizə bəlli olan digər məsələ ondan ibarətdir ki, təyyarə yerdən açılan atəş nəticəsində zədələnmişdir. Ancaq nə üçün təyyarə Aktau istiqamətinə göndərilmişdir? Bu barədə bizdə hələ ki, məlumat yoxdur. Bu, yerli dispetçerlər tərəfindən qəbul edilmiş qərar əsasında baş verib, yoxsa pilotlar özləri başa düşərək ki, artıq Rusiyanın hava məkanında radioelektron mübarizə vasitələri onlara eniş etmək üçün imkan verməyəcək və özləri bu seçimi ediblər. Bu barədə hələ ki, bizdə məlumat yoxdur. Təbii ki, "qara qutu"lar açılandan sonra bütün bu məlumatlar olacaq.

Azərbaycan dövləti öz oğul və qızlarının fəaliyyətini, qəhrəmanlığını həmişə layiqincə qiymətləndirib. Bu dəfə də ekipaj heyətinin qəhrəmanlığı layiqincə qiymətləndirildi.

Ekipajın üç üzvünə ölümündən sonra "Milli Qəhrəman" yüksək adı verildi, sağ qalan iki ekipaj üzvü də yüksək dövlət mükafatı ilə təltif olundu. Ola bilər ki, yaxınlarını itirən ailələr üçün bu, kiçik bir təsəllidir, amma Azərbaycan dövlətinin öz vətəndaşlarına münasibətinin təzahürüdür. Həlak olanların hər biri təkcə onun yaxınları, ailə üzvləri üçün deyil, həm də Azərbaycan dövləti üçün əzizdir. Biz buna operativ şəkildə reaksiya verdik, elə bir şəraitdə Azərbaycanın hər bir vətəndaşının həyatının bizim üçün çox qiymətli olduğunu bəyan edərək, prinsipial davrandıq və ədalət, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmalarına səbəb olan təqsirkarların cəzalandırılmasını tələb edəcəyik. Əgər Qroznı şəhəri öz ərazisində Rusiyanın hava məkanının bağlanması üzrə vaxtında tədbirlər görsəydi, yerüstü xidmətlərin bütün qaydalarına əməl olunsaydı, həmçinin Rusiya Federasiyasının silahlı qüvvələri və mülki xidmətləri arasında koordinasiya olsaydı, onda bu faciə də baş verməzdi.

Mən hələ ki, cinayət işinin bütün materiallarını açıqlamaq istəmirəm, onun ilkin təhqiqatı və nəticələri mənə məruzə edilib. Amma əminliklə deyə bilərəm ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrinin üzərindədir. Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik.

"Qara qutu"ların Braziliyaya göndərilməsi də ondan xəbər verir ki, biz obyektivlik tələb edirik. Mən artıq bu barədə ekipajla vida mərasimindən sonra da demişəm. Əgər biz ilk dəqiqələrdən və ya saatlardan Rusiya Federasiyası rəsmi dairələri tərəfindən bu faciəni obyektiv araşdırmaq cəhdini görsəydik, onda çox güman ki, "qara qutu"ların Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən açılmasının həyata keçirilməsinə razılıq verərdik. Biz onilliklər ərzində bu struktur ilə əməkdaşlıq etmişik və fəal əməkdaşlığımız olub. Bu struktur əsasən keçmiş SSRİ məkanında təyyarə qəzalarının təhqiqatı ilə məşğul olub. Amma biz işin ört-basdır edilməsi, bunu hansısa quşların və ya qaz balonunun adına çıxmaq cəhdini gördükdə, təbii ki, həm mənim, həm də Azərbaycan ictimaiyyətinin bu strukturun təhqiqatının obyektivliyinə ciddi şübhələri yarandı. Hazırda "qara qutu"ların şifrəsinin açılması prosesi gedir. Əminəm ki, yaxın vaxtlarda biz ilkin nəticələri öyrənəcəyik və hər şey öz yerini tutacaq. Baş verən faciənin bütün mənzərəsi də məlum olacaq. Təbii ki, bu, faciənin tam araşdırılması və onun günahkarlarının cəzalandırılması işində mühüm məqam olacaq.

Mən həlak olanların ailə üzvlərini, eləcə də ekipaj üzvlərini bu yüksək mükafatları şəxsən sizə təqdim etmək, sizə bir daha başsağlığı vermək və Azərbaycan dövlətinin hər zaman sizinlə olacağını bəyan etmək üçün dəvət etdim. Mən sizə müraciət və xahiş etmək istəyirəm ki, həyatın istənilən şəraitində sizin arxanızda güclü Azərbaycan dövlətinin dayandığını biləsiniz. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, həmçinin "Azərbaycan Hava Yolları" QSC-yə sizinlə daimi əlaqə saxlamaq və sizi narahat edən məsələləri operativ şəkildə həll etmək tapşırılıb.

Bir daha mənim başsağlığımı qəbul edin və əmin olun ki, biz bu məsələni, bu araşdırmanı sonadək başa çatdıracağıq".

X X X

Sonra təltifolunma mərasimi keçirildi.

# Konstitusiya və suverenlik ilinin hədəfləri

Müstəqil Azərbaycan son 21 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla, uğurla, ləyaqətlə inkişaf edib. Əlbəttə, bu illər ərzində sınaq məqamlarımız da olub, qarşımıza müəyyən çətinliklər də çıxıb. Ancaq heç bir çətinlik, işğal faktı, ölkə hüdudlarından kənarda qurulan məkrli planlar xalqımızın, dövlətimizin iradəsini sındıra bilməyib. Biz heç vaxt yolumuzdan dönməmişik və hədəflərimizdən yayınmamışıq. Əsas uğurumuz isə ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etmək olub.

Eyni zamanda, gələcəyə də böyük ümidlə baxırıq. Qarşımızda yeni ümummilli hədəflər dayanır. Şübhə yoxdur ki, Azərbaycan Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan olunan 2025-ci ildə də yeni reallıqlar və çağırışlar şəraitində öz məqsədlərinə doğru inamlı addımlar atacaq. Dövlətimizin başçısının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində buna dərin inam ifadə olunub.

**Sabitlik, əmin-amanlıq təmin olunacaq**

Hər bir ölkənin uğurlu inkişafı sabitlik faktorundan çox asılıdır. Bu gün dünyada baş verən hadisələr ciddi narahatlıq doğurur. Ayrı-ayrı regionlarda yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Belə bir təlatümlü mənzərə fonunda respublikamız sabitlik və inkişaf adası kimi fərqlənir. Ölkəmizdə güclü həmrəylik mühiti bərqərar olub. Dövlətin öz siyasətini cəmiyyətin sosial sifarişlərini nəzərə almaqla həyata keçirməsi vətəndaş məmnunluğunun artmasını şərtləndirir, insanlar ölkə rəhbərliyinə, Prezidentə dərin inam bəsləyirlər. Bunu 2024-cü ildə müstəqillik tariximizdə ilk dəfə ölkənin bütün ərazisində keçirilən prezident seçkilərinin nəticələri bir daha təsdiqlədi. Prezident İlham Əliyev Zəfər seçkilərində səslərin 92,12 faizini (4 milyon 567 min 458 səs) toplayaraq qələbə qazandı. Bu yalnız statistika deyil, ölkə vətəndaşlarının İlham Əliyevə inamının ifadəsidir. Sabitlik, xalq-iqtidar vəhdəti bütün uğurlarımızın əsas şərtidir. Azərbaycanın sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşadığına diqqət çəkən Prezident İlham Əliyev "Əminəm ki, bundan sonra sabitlik və əmin-amanlıq əbədi olacaqdır", - deyə vurğulayıb.



Azərbaycan həmçinin regionda da möhkəm sabitliyin, davamlı sülhün təmin olunmasını istəyir. Respublikamızın 44 günlük müharibənin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq yaratdığı yeni reallıqlar Cənubi Qafqaz coğrafiyasında inam və əməkdaşlıq mühitinin formalaşmasına münbit zəmin yaradıb və bundan istifadə olunmalıdır. Təəssüf doğuran haldır ki, Ermənistan üzləşdiyi məğlubiyyətlərdən nəticə çıxarmayaraq yenidən silahlanma yolu tutub. Bu, məğlub ölkəni faciəyə aparan bir yoldur. 2025-ci ildə ölkəmizin hərbi xərcləri 8,4 milyard manat olacaq. Bu isə o anlama gəlir ki, Ermənistanın Azərbaycanla rəqabət aparmaq imkanları yoxdur və gələcəkdə də olmayacaq.

**Böyük Qayıdış proqramının icrası prioritet məsələdir**

Qalib Azərbaycan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsini yeni strateji mərhələdə özünün beş milli prioritetindən biri kimi müəyyənləşdirib. Bəhs olunan ərazilərin bərpasına müharibə başa çatandan sonra vaxt itirilmədən start verilib və hazırda da intensiv şəkildə davam etdirilir.

Göz önündə yeni bir Qarabağ formalaşır. Ərazilər sürətlə minalardan təmizlənir, şəhər və kəndlər, infrastruktur obyektləri müasir yanaşmalar əsasında yenidən qurlur. Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır. İşlər 2025-ci ildə də eyni ardıcıllıqla davam etdiriləcək. Qeyd edək ki, cari ildə Qarabağ və Şərqi Zəngəzurun bərpasına daha 4 milyard manat vəsait yönəldilməsi nəzərdə tutulur. "Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Dövlət siyasətinin mühüm istiqamətlərindən biri - dinlərarası dialoq

Yüksək tolerantlıq mühitinə malik olan Azərbaycanda etiqad azadlığı təmin edilir, insanların inanclarına dərin hörmətlə yanaşılır. Ölkəmizdə hər il müqəddəs Milad bayramının qeyd olunması da bunun əyani təsdiqidir. Hər zaman dünyaya multikulturalizm çağırışları edən Prezident İlham Əliyev bu müqəddəs bayram münasibətilə pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb. Azərbaycanın bütün xristian icmasına xoş arzularını çatdıran dövlətimizin başçısı təbrik məktubunda ölkəmizin nümunəvi multikultural mühitinə diqqət çəkib.

**Azərbaycanın nümunəvi tolerantlıq mühiti**

Yaşıl çəmənlər rəngarəng çiçəkləri ilə cəlbedici olduğu kimi, dünya da xalqların müxtəlif adət-ənənələri, inancları, fəqli məişət tərzləri, həyata baxışları ilə gözəldir. Bu rəngarəngliyi qorumaq və gələcək nəsillərə ötürmək lazımdır. Dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir xalqa, hər bir icmaya özünün inanclarını davam etdirməsinə şərait yaradılmalıdır. Lakin təəssüf doğuran haldır ki, hazırda dünyamızın mənzərəsi məhz bu cəhətdən ciddi narahatlıq doğurur. Bəşəriyyətin yüksək inkişaf səviyyəsinə çatdığı XXI əsrdə sayrı-ayrı ölkələrdə dini-mədəni müxtəlifliyə dözümsüz yanaşmalar getdikcə atır.

Dünyadakı belə kədərli mənzərə fonunda Azərbaycan tolerantlıq baxımından nümunəvi bir məkan kimi diqqət mərkəzinə gəlir. Hazırda dünyada İlham Əliyev kimi tolerantlıq ideyalarının qorunub saxlanılmasına və daha da zənginləşdirilməsinə səmimi şəkildə çağırışlar edən liderlərin sayı elə də çox deyil. Ölkəmizin hər cəhətdən nümunəvi olan multikultural mühitinə diqqət çəkən Prezident İlham Əliyev "Azərbaycanda əsrlərdən bəri xristian dininin mənsubları digər xalqların və konfessiyaların nümayəndələri ilə birgə mehriban dostluq, sülh və əmin-amanlıq mühitində yaşayırlar. Ölkəmizdə etnik-mədəni müxtəlifliyin və zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına qlobal miqyasda dəstək göstərilməsi apardığımız siyasətin başlıca istiqamətlərindəndir", - deyə vurğulayıb.

**Hər kəs eyni hüquq və azadlıqlara malikdir**

Azərbaycan çoxkonfessiyalı cəmiyyətə malikdir. Ölkəmizdə əhalinin böyük əksəriyyəti müqəddəs İslam dininə etiqad bəsləyir. Eyni zamanda, respublikamızda digər dinlərə də böyük hörmət bəslənilir. Azərbaycanda multikulturalizm tarixdən gələn bir ənənədir və bu gün də qorunub saxlanılır. Prezident İlham Əliyevin bildirdiyi kimi, nümunəvi mültikulturalizm məkanı kimi tanınan Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs eyni hüquq və azadlıqlara malikdir.

O cümlədən xristian həmvətənlərimiz də inanclarına uyğun ayin və mərasimləri sərbəst şəkildə həyata keçirməklə öz adət-ənənələrini layiqincə yaşadırlar. Pravoslav xristian icmasının hər il yanvarın 7-də ənənəvi olaraq Milad bayramını təntənəli şəkildə qeyd etməsi bunun daha bir təsdiqidir. Milad bayramı yanvarın 6-dan başlayır. Pravoslavlara görə bu, 40 günlük orucun son günüdür. Milad orucu 12 yağsız yeməyin düzüldüyü və onların hər birindən dadılması zəruri sayılan şam süfrəsi ilə bitir: yanvarın 7-də bütün məhdudiyyətlər aradan qaldırılır və artıq əsl bayram ziyafəti təşkil etmək olar.

*Mübariz FEYİZLİ*

# T.Y.Budaqovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Tahir Yaqub oğlu Budaqov “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 31 dekabr 2024-cü il**

**P.S.** Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla Tahir Yaqub oğlu Budaqov “Şöhrət” ordeni ilə təltif edilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ona həvalə olunan bütün vəzifələrdə etimadı layiqincə doğruldaraq dövlətçilik naminə səmərəli fəaliyyət həyata keçirir. “Yeni Azərbaycan” qəzetinin kollektivi Tahir Budaqovu “Şöhrət” ordeninə layiq görülməsi münasibətilə təbrik edir, ona gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayır.

# YAP Mərkəzi Aparatında müşavirə keçirilib







Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsi üzrə irəli sürdüyü bütün namizədlərin qeydə alındığı vurğulanaraq onlara uğurlar arzulanıb.

Sonra YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, ötən müddət ərzində nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi qeyd edilərək yerli seçki qərargahlarının fəaliyyəti müsbət qiymətləndirilib.

Yanvarın 6-dan başlayacaq seçkiqabağı təşviqat mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılaraq müvafiq tapşırıq və tövsiyələr verilib, YAP Mərkəzi Aparatı tərəfindən hazırlanmış seçki proqramı və digər təşviqat materialları yerli seçki qərargahlarının sədrlərinə təqdim olunub.

Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri ilə əlaqədar maarifləndirmə məqsədilə istər məşvərətçi səs hüquqlu üzvlər, istərsə də seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslər üçün keçiriləcək təlimlərin önəmi vurğulanıb.

# Mühüm mərhələ başladı

## Bələdiyyə seçkilərində 118 seçki dairəsini əhatə edən 685 bələdiyyə üzrə 15 min 696 namizəd qeydə alınıb



Azərbaycan növbəti seçkilər ərəfəsindədir. Söhbət cari il yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərindən gedir. Bu, müstəqillik tariximizdə ölkənin bütün ərazisində keçiriləcək ilk bələdiyyə seçkiləri olacaq.

Hazırda seçkilərə hazırlıq tədbirləri ardıcıllıqla davam etdirilir. “Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə Tədbirlərin Təqvim Planı”na əsasən, yanvarın 6-dan seçkiqabağı təşviqat kampaniyasına start verilib.

**Seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerləri müəyyənləşdirilib**

Mərkəzi Seçki Komissiyasının (MSK) məlumatına əsasən, təşviqat kampaniyası yanvarın 28-dək davam edəcək. Kampaniya çərçivəsində Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri təşviqat işlərini apara bilərlər. Artıq seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerləri müəyyənləşdirilib.

MSK-nın son məlumatına görə, bələdiyyə seçkilərində 118 seçki dairəsini əhatə edən 685 bələdiyyə üzrə 15 min 696 namizəd qeydə alınıb.

Xatırladaq ki, ölkənin əksər siyasi partiyaları bələdiyyə seçkilərində iştirak edəcəyini bəyan edib. Yalnız Azərbaycan Xalq Cəbhəsi Partiyası bələdiyyə seçkilərinə qatılmayıb.

**685 bələdiyyə üzrə ümumilikdə 8071 üzv seçiləcək**

Azərbaycanın dövlət siyasətinin mərkəzində inkişaf və sosial rifah amili dayanır. Bələdiyyələr də fəaliyyətlərində vətəndaş iştirakçılığını geniş miqyasda təmin etməklə bu siyasətdə fəal rol almalıdırlar. Son vaxtlarda hüquqi bazanın möhkəmləndirilməsi, bələdiyyələrin formalaşdırılması ilə bağlı yeniliklərin qüvvəyə minməsi də məhz bu məqsədə xidmət edir. Xəbər verildiyi kimi, “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanunlarda əlavə və dəyişikliklər edilib. Son olaraq Prezident İlham Əliyev “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununu təsdiqləyib. Şübhə yoxdur ki, bəhs olunan dəyişikliklər bələdiyyələrin funksional bir qurum kimi fəaliyyətinə müsbət təsir göstərəcək və onların çevikliyini artıracaq.

Müvafiq qanunlara edilən dəyişikliklərə əsasən, ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı dörd ilin son iki ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla digər bələdiyyələrlə birləşdirilir. Nəticədə, bələdiyyələrin sayı 3 dəfəyə yaxın azaldılaraq 1450-dən 685-ə endiriləcək. Struktur dəyişikliyi nəticəsində 2025-ci ildən təxminən əvvəlki mövcud olan 800-ə yaxın bələdiyyə hüquqi statusunu itirmiş olacaq. MSK-nın sədri Məzahir Pənahovun verdiyi məlumata əsasən, Azərbaycanda 685 bələdiyyə üzrə ümumilikdə 8071 üzv seçiləcək.

***MÜBARİZ***

# Sosial prinsipə əsaslanan tarif tənzimlənməsi

## Kommunal sektorda tarif dəyişiklikləri dayanıqlı və keyfiyyətli xidmətin göstərilməsinə şərait yaradacaq

Məlum olduğu kimi Tarif Şurasının 2025-ci il yanvarın 2-də qəbul etdiyi qərarlara əsasən, kommunal xidmətlərin və dərman vasitələrinin qiymətləri tənzimlənib. Belə ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifi nəzərə alınaraq su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə görə ilk dəfə olaraq tariflər təsdiq edilib. Bunun da səbəbi indiyədək bu sahədə işlərin dövlət tənzimlənməsi olmadan pərakəndə şəkildə fərqli məbləğlərlə həyata keçirilməsi olub.

Yeni tənzimləmlərdən sonra bu sahədə vahid idarəetmə sistemi tətbiq olunmaqla pərakəndəliyə son qoyulub. Su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiq olunmuş tariflərdə əhali abonentləri üzrə qoşulma üçün həm sosial xarakterli, həm də şəhər və regionlar üzrə diferensial yanaşma tətbiq edilib. Əhali abonentləri üçün Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu üzrə su təchizatı şəbəkəsinə qoşulmanın birdəfəlik tarifi 200 manat, digər inzibati ərazi vahidləri üzrə isə 170 manat müəyyən edilib. Tullantı sularının axıdılması şəbəkəsinə qoşulma üzrə tariflər Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu üzrə 345 manat, digər inzibati ərazi vahidləri üzrə isə 290 manat səviyyəsində təsdiqlənib.

Bu sahədə tənzimləmə qoşulma ilə bağlı xərclərin azalmasına, dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə öz töhfəsini verəcək, eləcə də maliyyə şəffaflığına və uçot sisteminin təkmilləşdirilməsinə, habelə əlavə yığımlar hesabına investisiya qoyuluşuna şərait yaradacaq.

### Su pulunda qiymət dəyişikliyi olmayıb

Məsələ ondadır ki, bəzi sosial media seqmentlərində su tariflərinin tənzimlənməsi süni şəkildə qiymət artımı kimi təqdim olunur və bu, abonentlərin aylıq sərf etdiyi su və kanalizasiya xidmətləri üzrə tariflərin bahalaşması kimi səciyyələndirilir. Qətiyyən belə bir şey yoxdur və su-kanalizasiya tariflərində heç bir dəyişiklik olunmayıb, tariflər əvvəlki illərdə təyin edilmiş əmsallar üzrə müəyyənləşməklə qüvvədədir.

Tarif tənzimlənməsinin həyata keçirildiyi sahələrdən biri olan istilik təchizatı xidmətindəki qiymət dəyişikliyinə gəlincə, bu, qeyd olunan sahədə xərclərin maya dəyərinin hədsiz dərəcədə yüksək olması və rentabelli fəaliyyətin pozulması ilə bağlıdır. Belə ki, istilik təchizatı sahəsində sonuncu qiymət tənzimlənməsi 14 il əvvəl aparılıb və sonrakı illərdə təbii qazın və suyun maya dəyərinin artmasına baxmayaraq bu sektorda qiymətlər sabit qalıb. Bu isə xərclərin böyüməsi və təsərrüfat fəaliyyətinin ritminin pozulması, dövlətin subsidiyalarından asılılığın artmasına gətirib çıxarıb. “Azəristiliktəchizat” ASC üzrə 1 m2 sahə üçün istilik təchizatı xidmətinin maya dəyəri 1 manat 10 qəpik təşkil etdiyi halda, 2011-ci ildən qüvvədə olan ödənişlərin 1 m2 sahə üzrə tarifi 15 qəpik olub. Aradakı qiymət fərqi dövlət büdcəsindən ayrılan subsidiyalar hesabına qarşılanır və hər il büdcədən bu sahəyə 50 milyon manata yaxın dotasiya ayrılır. Nəticədə büdcə asılılığı həmin sahədə təsərrüfat fəaliyyətinin tənzimlənməsində ciddi problemlərə səbəb olur. Bu baxımdan qeyd edilən sahədə yumşaq tarif siyasəti həyata keçirilməklə optimal tarifin müəyyənləşdirilməsi qərara alınıb. Belə ki, “Azəristiliktəchizat” ASC tərəfindən əhali istehlakçı qrupuna göstərilən istilik xidmətinin tarifi sayğac quraşdırılmadığı halda aylıq 1 m2 üçün 30 qəpik səviyyəsində təsdiq edilib.

### İstilik təchizatı sistemində xərcləri yenə də dövlət üzərinə götürəcək

Yeri gəlmişkən, yeni qiymət tənzimlənməsindən sonra da, istilik təchizatı sistemindən əldə edilən yığımlarla xərclərin qarşılanması mümkün deyil. Dövlət vətəndaşların sosial vəziyyətinin nəzərə alaraq bu sahədə xərcləri yenə də öz üzərinə götürəcək. Ancaq bununla yanaşı, yeni tarif tənzimləməsi sayəsində dövlət büdcəsindən asılılıq azalacaq, istilik təchizatının əhatəsinin genişləndirilməsinə və bu sahədə xidmətin keyfiyyətinin yüksəldilməsinə şərait yaranacaq.

Təbii qaz tarifləri ilə bağlı tənzimlərin də məqsədi bu sahədə xərc-maya dəyəri-yığım əmsalı arasındakı uyğunsuzluğu aradan qaldırmaqdır. Ölkəmizdə təbii qaz üzrə mövcud ölkədaxili orta tarif maya dəyərindən aşağıdır. Bu, iqtisadi zərərin qarşısının alınması, rentabelliliyin təmin edilməsi və bu sahəyə investisiyaların artırılması üçün yeni tarif tənzimləməsi zərurəti yaradıb. Bu sahədə də sosial prinsip əsas götürlüb və dövlətin yürütdüyü sosial siyasətə əsasən, enerji resurslarından səmərəli isfadənin təşviqi məqsədilə istilik təchizatı üçün çoxmənzilli binaların mərkəzləşdirilmiş qazanxanalarına verilən 1 kubmetr təbii qazın tarifi dəyişdirilməyib.

Əhali üzrə illik istehlak həcmi isə 1200 kubmetr olan limit üzrə 1 kubmetr təbii qazın tarifi 0,5 qəpik artırılaraq 12 qəpikdən 12,5 qəpik həddində, 1200 kubmetr- 2500 kubmetr limit üzrə 2 qəpik artırılaraq 20 qəpikdən 22 qəpik müəyyənləşib. 2500 kubmetrdən çox olan hissə üçün tariflər 25 qəpikdən 30 qəpik məbləğində təsdiqlənib.

### İşıq və qazın yeni tarifləri əhalinin böyük hissəsinin xərclərinə cüzi təsir edəcək



Tarif dəyisikliyi əhalinin aztəminatlı hissəsinə demək olar ki, təsir göstərmir. Belə ki, əhali abonentlərinin 48-50 faizinin illik qaz sərfiyyatı 1200-1500 kubmetr arasındadır və yeni tarif onların aylıq xərcinə təxminəmn 32 qəpik təsir göstərəcək. Abonentlərin 39 faizi üzrə üzrə aylıq xərcdə 1 manat 43 qəpik fərq olacaq. Göründüyü kimi bu sahədə də sosiallıq prinsipinə istinad edilib. Yaxud elektrik enerjisi tariflərində də eyni sosial yanaşmaya üstünlük verilib. Əhali üzrə aylıq istehlak həcmi 200 kVts olan hissə üçün 1 kilovatt-saat elektrik enerjisinin tarifi 0,4 qəpik artırılaraq 8 qəpikdən 8,4 qəpiyə, 200 kilovatt-saatdan 300 kilovatt saatadək olan hissə üçün 1 qəpik artırılaraq 9 qəpikdən 10 qəpiyə dəyişdirilib. Nəzərə alsaq ki, ölkə üzrə əhalinin 50 faizindən çoxu 200-300 kVts elektrik enerjisi istifadə edir və tarif tənzimlənməsi onların aylıq xərclərinə 40-80 qəpik təsir göstərəcək. Hətta abonentlərin 65 faizi üzrə 45 qəpik xərc yaranacağı proqnozlaşdırılır.

Göründüyü kimi kommunal sektorda tarif dəyişiklikləri bu sahədə də dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə imkan yaradacaq.

Tarif dəyişikliyinin edildiyi digər sahə olan dərman vasitələrinin qiymətində tənzimləmələr də sosial əhəmiyyət kəsb edir və etibarlı təchizatın yaradılması məqsədi daşıyır. Belə ki, müvafiq tənzimləmələrdən sonra yeni dövlət qeydiyyatına alınan təxminən 100 dərman vasitəsinin qiymətinin yuxarı həddi təsdiq edilib.

***Məhəmməd***

# Yeni Azərbaycan Partiyası seçkiqabağı təşviqat kampaniyasına start verib





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 6-da seçkiqabağı təşviqat mərhələsi başlanıb.

Yeni Azərbaycan Partiyası (YAP) təşviqat kampaniyasına uğurla start verib. Yanvarın 6-sı saat 00:00-dan etibarən YAP-ın bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsi üzrə irəli sürdüyü namizədlərin təşviqat plakatları qanunvericiliyin tələblərinə müvafiq olaraq müəyyən edilmiş ünvanlarda yerləşdirilib.

## "Seçimimiz Yeni Azərbaycan Partiyasıdır!"




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Balakən rayonu, Katex və Kortala bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Balakən rayon təşkilatının sədr müavini Qurban Qaraisayev bildirib ki, Prezident İlham Əliyevin 2024-cü ildə imzaladığı "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" qanun bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq və yerli özünüidarəetməni gücləndirmək məqsədi daşıyır. O bildirib ki, həyata keçirilən tədbirlər nəticəsində əhaliyə göstərilən xidmətlərin keyfiyyəti artacaq.

Bələdiyyə üzvlüyünə namizədlər - Nicat Mikayılov, Rəfiqə Xatatiyeva, Xatirə Muradova yüksək həyat standartlarının təmin edilməsi üçün yerli özünüidarəetmə orqanlarının mövcud resurslardan daha səmərəli istifadəsinin, ailə-kəndli təsərrüfatlarının, fərdi sahibkarlığın inkişafına dəstək verilməsinin aktual çağırışlar sırasında olduğunu deyiblər.

Görüşdə çıxış edən seçicilər qarşıdan gələn bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini qeyd ediblər. "Seçimimiz Yeni Azərbaycan Partiyasıdır!" , - deyə bildirilib.

## Xalqın YAP-a inamı sonsuzdur!





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qəbələ rayonu, Qəbələ bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Görüşdə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov ölkəmizdə bələdiyyələrin yaranmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. "Ulu Öndər Heydər Əliyevin yerli özünüidarəetmənin inkişafı ilə bağlı müəyyən etdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən dəstək alacağına inanırıq", - deyə o vurğulayıb.

Görüşdə yerli seçki qərargahının üzvləri Esmira Əsədova, Mehman İsmayılov, bələdiyyə üzvlüyünə namizədlər Ramin Əliyev, Nərmin Cabbarlı və Sübhan Şeydayev YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını qeyd ediblər. "Xalqın YAP-a inamı sonsuzdur!", - deyə bildirilib.

Çıxış edən seçicilər isə bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

## Yeni Azərbaycan Partiyası növbəti qələbə əzmindədir





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Quba rayonu, Qırmızı Qəsəbə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova bildirib ki, yerli özünüidarəetmə orqanlarında təmsil olunan YAP üzvləri xalqın etimadını böyük məsuliyyət kimi qəbul edərək bu sahədə konkret nəticələrin əldə olunmasına hesablanan məqsədyönlü fəaliyyət həyata keçirirlər: "Bununla bərabər, yerli özünüidarəetmənin təkmilləşdirilməsi, eləcə də əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması naminə qarşıda mühüm vəzifələr durur. Xalqın iradəsi əsasında yeni formalaşacaq bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri də öz fəaliyyətlərini məhz bu hədəflər istiqamətində quracaqlar".

Görüşdə namizədlər Yafo Yedadayeva və Yavuşva Simanduyev ümumxalq partiyası olan YAP-ın növbəti qələbə əzmində olduğunu vurğulayıblar.

## YAP xalqın iradəsinin ifadəçisidir





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Masallı rayonu, Ərkivan və Banbaşı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, ölkəmizdə ötən müddət ərzində yerli özünüidarəetmənin inkişafı üçün mühüm addımlar atılıb, zəruri qanunlar qəbul edilib və bələdiyyələrin fəaliyyəti təkmilləşdirilib.

Təşviqat qrupunun üzvləri - Əntiqə Tağıyeva, Nahid Rəhimov, Ülvi Rufullayev və bələdiyyə üzvlüyünə namizədlərdən Mazan Kamalov yerli özünüidarəetmə orqanlarının qarşısında duran vəzifələrdən bəhs ediblər. Qeyd olunub ki, yeni mərhələdə bir sıra Dövlət proqramları çərçivəsində bələdiyyələrin öz ərazilərində sahibkarlıq üçün münbit şərait yaratması, öz xidmət sahələrini, bələdiyyə müəssisələrini, təsərrüfat subyektlərini təşkil etməsi, turizm sektorunu əhatə edən layihələr icra etməsi nəzərdə tutulur ki, bu da region iqtisadiyyatının dinamik inkişafına dəstək kimi olduqca əhəmiyyətlidir.

Çıxış edən seçicilər bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini ifadə ediblər. "YAP xalqın iradəsinin ifadəçisidir" ,- deyə vurğulanıb.

## "Naftalan seçiciləri ümumxalq partiyasının namizədlərinə səs verəcəklər"





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Naftalan şəhəri, Naftalan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Naftalan şəhər təşkilatının sədri Rövlan Heydərov qeyd edib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası bütün seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinə də yüksək fəallıqla başlayıb. O, bütün seçiciləri yanvarın 29-da seçki məntəqələrinə dəvət edərək Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıb.

Görüşdə çıxış edən seçki qərargahının üzvləri Zülfümar Nuriyeva, Elsivar Qəmbərov və digərləri qeyd ediblər ki, Yeni Azərbaycan Partiyası hər zaman inamlı qələbələr qazanıb. Çıxış edənlər son illər ölkəmizdə gedən sosial-iqtisadi inkişafdan, ötən müddət ərzində partiya üzvlərinin təmsil olunduqları müxtəlif bələdiyyələrin gördüyü işlərdən danışıblar.

Öz növbəsində seçicilər YAP-ı dəstəklədiklərini vurğulayıblar. "Naftalan seçiciləri ümumxalq partiyasının namizədlərinə səs verəcəklər", - deyə vurğulanıb.

# Vətəndaş məmnunluğu naminə...







Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nəsimi rayonu, Nəsimi bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib ki, Yeni Azərbaycan Partiyası 1999, 2004, 2009, 2014 və 2019-cu illərdə keçirilmiş bələdiyyə seçkilərində fəal iştirak edərək inamlı qələbələr qazanıb. Təşkilat sədri YAP-ın növbəti bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını diqqətə çatdırıb.

Tədbirdə təşviqat qrupunun üzvləri - YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı və Vətən müharibəsi qazisi Rüfət Salmanov, bələdiyyə üzvlüyünə namizəd Mətləb Məmmədov ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atıldığını diqqətə çatdırıblar. Qeyd olunub ki, bələdiyyələr indiyədək sosial məsələlərin həlli, məşğulluğun təmin edilməsi və bir sıra mühüm layihələrin icrasında əhəmiyyətli rol oynayıb. Qarşıda duran əsas vəzifələr isə yerli özünüidarəetmənin təkmilləşdirilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır. Seçkilər nəticəsində yeni bələdiyyələrdə təmsil olunacaq YAP üzvləri də bu istiqamətdə fəaliyyət göstərəcəklər.

Görüşdə çıxış edən seçicilər YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# YAP gücünü xalqın dəstəyindən alır








Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nizami rayonu, Nizami və Keşlə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov Ulu Öndər Heydər Əliyevin dəyərli mənəvi-siyasi mirası olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyasının xalqın böyük etimadına malik olduğunu qeyd edib. O, yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərinin də xalqın YAP-a inamının növbəti bariz nümunəsi olacağını əminliklə ifadə edib. “YAP gücünü xalqın dəstəyindən alır”, - deyə vurğulanıb.

Görüşdə çıxış edən yerli seçki qərargahının üzvü Məhi Mehtiyev, təşviqat qrupunun üzvü Mayıl Əliyev, Nizami bələdiyyəsi üzvlüyünə namizədlər Vüqar Quliyev, Heydər Rəhimov, Keşlə bələdiyyəsi üzvlüyünə namizədlər İradə Həsənova, Rəşad Babayev ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində atılan addımlardan danışıblar.

Seçicilər isə çıxışlarında bələdiyyə seçkilərində YAP namizədlərini dəstəkləyəcəklərini vurğulayıblar.

# Zəfər partiyası növbəti dəfə qalib gələcək







Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şəmkir rayonu, Şəmkir bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev ölkəmizdə bələdiyyələrin yaranması, ötən dövr ərzindəki fəaliyyəti, dövlətimiz tərəfindən yerli özünüidarəetmə orqanlarına göstərilən dəstəkdən danışıb. O, yanvarın 29-da bələdiyyə seçkilərinin tam şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hər cür şərait yaradıldığını bildirib. Onun sözlərinə görə, xalqın etimadını layiqincə doğruldan, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan YAP növbəti bələdiyyə seçkilərinə yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılıb. “Zəfər partiyası növbəti dəfə qalib olacaq”, - deyə bildirilib.

Görüşdə seçki qərargahının üzvləri - Famil Həmidov, Vasif Nəbiyev və bələdiyyə üzvlüyünə namizədlər Vüqar Həsənov, Nizami Qurbanov YAP-ın ölkəmizdə keçirilmiş bütün seçkilərdə qazandığı parlaq qələbələrdən ətraflı söz açıblar. Qazanılan nailiyyətlərlə yanaşı, qarşıda duran vəzifələrdən də bəhs olunub.

Görüş zamanı seçicilər bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Ardıcıl tədbirlər bələdiyyə institutunun təkmilləşdirilməsinə mühüm töhfələr verir







Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ucar rayonu, Qaracallı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq həyata keçirilən islahatlar vətəndaşlar tərəfindən təqdirlə qarşılanır. Yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilərin əhəmiyyətini diqqətə çatdıran Ş.Abdullayeva “Yarandığı vaxtdan bütün seçkilərdə inamlı qələbə qazanan Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşıb”, - deyə vurğulayıb.

Görüşdə çıxış edən təşviqat qrupunun üzvləri Mirzalı Ağamalıyev, Hikmət Şərifov, Nurməmməd Tağıyev və bələdiyyə üzvlüyünə namizədlər Tahir Kərimov, Hünər Əliyev, Aslan Əhmədli və Pərvanə Məmmədova ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atıldığını diqqətə çatdırıblar. “Dövlət başçısının çoxşaxəli islahatlar kursunun mühüm tərkib hissəsi kimi həyata keçirilən ardıcıl tədbirlər bələdiyyə institutunun təkmilləşdirilməsinə də öz töhfəsini verməkdədir”, - deyə bildirilib.

Çıxış edənlər Ucar seçicilərinin bələdiyyə seçkilərində fəal iştirak edəcəklərini və müasir, qalib, qüdrətli Azərbaycanın inkişafı naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Yeni nailiyyətlər qazanmaq üçün...







Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Zərdab bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Zərdab rayon təşkilatının sədri İlkin Əliyev YAP-ın seçki proqramı haqqında məlumat verib. O, partiyanın xalqın dəstəyi ilə növbəti qələbəyə imza atmaq əzmində olduğunu bildirib.

Çıxış edən bələdiyyə üzvlüyünə namizədlər Natiq Hüseynov, Sənan Əhmədzadə, Bəhruz Qurbanov və Radim Məmmədov ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının fəaliyyətindən, həyata keçirilən layihələrdən bəhs ediblər. Bildirilib ki, bələdiyyələrin qarşısında yeni vəzifələr dayanır. Onlar bu vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi və yeni nailiyyətlər qazanılması üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Seçicilər isə bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Levon Ter-Petrosyanın etirafları...

## Ermənistanın cinayətkar mahiyyətini bir daha açıqlayır

**Tarixən Cənubi Qafqaz mühüm inkişaf perspektivinə malik, yüksək logistik üstünlüklər daşıyan coğrafiya, ən əsası isə sivilizasiyalararası inteqrasiyanın əsas mərkəzlərindən biri kimi şöhrət qazanıb. Amma son 200 ildə Cənubi Qafqazda baş verən distabilliklər bu inkişaf meyarlarının önə keçməsinin qarşısını alıb. Bunun günahkarı isə birmənalı şəkildə xəstə "böyük Ermənistan" təxəyyülünə malik olan ermənilər, faşizmi dövlət siyasətinə çevirən Ermənistanın siyasi rəhbərləri olub. Xüsusilə, 1988-91-ci illərdə (SSRİ-nin dağılması ərəfəsi və dağılması dövrü) milli faşizm eqoizmlərini "milli ideologiya" adı altında pərdələyərək regionu terror yuvasına çevirən Ermənistan Azərbaycan xalqına qarşı olmazın cinayətlərə imza atdı - yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından, ata-baba yurdlarından zor gücünə qovuldu, deportasiyaya məruz qaldı. Qarabağın və ətrafındakı rayonların işğalı isə xalqımıza qarşı olmazın soyqırımları ilə müşayiət olundu. Qaradağlı, Kəlbəcər, Başlıbel, Xocalı soyqırımları kimi faciələr əsl cinayət idi.**

## Azərbaycanlılara qarşı aparılan etnik təmizləmə, soyqırımı siyasətinin real təsdiqi sayılan fikirlər

### Azərbaycanlıların Ermənistanla yanaşı Qarabağdan da qovulması planı...

Ermənistan illərdir törətdiyi bu cinayətləri etiraf etməkdən yayınıb. Amma artıq həqiqətin önünə keçmək mümkün deyil. Real faktlar erməni faşizminin üzərindən pərdəni qaldırır və bu "dövlətin" mahiyyətini dünyaya nümayiş etdirir. Təsadüfi deyil ki, bu faktlar Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar siyasətin müəlliflərindən biri sayılan Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın dilindən etiraf olunur. Bəli, sözügedən faşist mahiyyət, vaxtilə azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti Ermənistanın keçmiş dövlət başçısının dili ilə təsdiqlənir. Tanınmış videobloqer Albert İsakov özünün "YouTube" kanalında Ter-Petrosyanın 1993-cü il iyulun 23-də "Yerkrapa" terror təşkilatının üzvləri ilə görüşünün videosunu yayıb. Ter-Petrosyan etiraf edir ki, 1988-ci ilə qədər Ermənistanda yaşayan yüz minlərlə azərbaycanlı öz ev -eşiyindən didərgin salınıb: "Təsəvvür edin, indi onlar Ermənistandadır. Əgər onlar Ermənistanda olsaydı, bizim dövlətimiz olmayacaqdı; biz onda şimal-şərq rayonlarını, Göyçəni müdafiə edə bilməyəcəkdik. Azərbaycanlılar 3 rayonda çoxluq təşkil edirdilər: Bu, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) və Amasiyadır. Azərbaycanlılar Zəngəzur mahalında böyük üstünlük təşkil edirdilər. Bu problem həll edildi və bu, göydən hədiyyə kimi düşmədi. Bunu biz etdik, milli hərəkat etdi, erməni ümummilli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə batalyonları, bizim "Yerkrapa" dəstəsi. Həmçinin Qarabağ. Bu gün bütün Artsax (Qarabağ), o cümlədən, daha bir çox torpaqlar ermənilərin əlindədir".

Bu fikirlər birmənalı şəkildə Ermənistanın həyata keçirdiyi etnik təmizləmənin, tarixi cinayətin etirafıdır. Ter-Petrosyan öz sözləri ilə azərbaycanlıların Ermənistandan faktiki olaraq silah gücünə qovulduğunu təsdiqləyir. Təqdim olunan video ermənilərin planlı şəkildə Azərbaycan əhalisinə qarşı həyata keçirdikləri sistemli etnik təmizləmə siyasətini ortaya qoyur. Ermənistanın birinci prezidenti tək Qərbi Azərbaycanı deyil, Qarabağı da azərbaycanlılardan "azad ərazilərə çevirdikləri"ni deyir. Bu isə birmənalı şəkildə cinayət faktının etirafıdır.



### Koçaryan, Sarkisyan, Balayan - cinayətkar dəstənin özünüifşası...

Əslində bu, ilk fakt deyil. Ermənistan rəhbərlərinin azərbaycanlılara qarşı apardıqları etnik təmizləmə siyasəti, hətta Xocalı soyqırımı ilə bağlı fikirləri onların törətdikləri cinayətlərin faktoloji sübutudur. Məsələn, təxminən 20 il öncə Ermənistanın ikinci prezidenti və Xocalı qətliamının iştirakçılarınan biri olan Robert Koçaryan AŞPA plenar sessiyasında Azərbaycan torpaqlarının işğalında şəxsən iştirak etməsi ilə qürur duyduğunu dilə gətirmişdi. Robert Koçaryan həmin iclasdakı çıxışında ermənilərlə azərbaycanlılar arasında milli uyumsuzluğun mövcudluğu barədə irqçi faşist mahiyyətli fikirlərini səsləndirmişdi və bu da ermənilərin faşizm ideologiyasına xidmət göstərdiyinin bariz sübutu idi.

Bu da son deyil... bu ölkənin üçüncü prezidenti Serj Sarkisyan da 2000-ci ildə jurnalist Tomas de Vala müsahibəsində Xocalı qətliamının birbaşa iştirakçısı olduğunu etiraf etmişdi: "Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu". Bu, insanlıq tarxinin ən böyük faciələrindən birini törədən şəxsin etiraflarıdır və birmənalı şəkildə cinayət tərkibi daşıyır.

Ermənistanın şovinist ideologiyasının əsas simalarından sayılan yazıçı Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda soyqırımı törətdiklərini etiraf edərək yazır: "Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq"...

Bəli, artıq şərhə ehtiyac qalmır. Erməni mahiyyəti, erməni faşizmi bütün xırdalıqlarına qədər göz önündə canlanır...

***P.İSMAYILOV***

# Trampın "sülh planı" reallaşır?

## Ukrayna atəşkəsə razıdır, amma...

2025-ci ilin əsas siyasi gözləntilərindən biri Rusiya-Ukrayna müharibəsinin başa çatmasıdır. Ötən ilin payızına kimi müharibənin hansısa razılaşma və ya atəşkəslə bitməsinə inam az idisə, ABŞ-da Donald Trampın yenidən prezident seçilməsi bu məsələdə həlledici rol oynaya bilər. Belə ki, Trampın "Ukraynada sülh planı" ümumən Qərbin Ukrayna - Rusiya müharibəsinə baxışını dəyişir. Dünənə qədər sülh çağırışları əsasən Şərqi Avropa ölkələrindən - Türkiyə, Macarıstan, Serbiya, Slovakiyadan səslənirdisə, artıq bu sıra daha da "sıxlaşır". Xüsusilə Almaniyanın prosesə aktiv şəkildə qoşulması, Fransanın sülh haqqında danışması və başqa dövlətlərin də bu fikirləri dəstəkləmələri onu göstərir ki, sülh prosesi demək olar ki, aktiv fazaya qədəm qoyur. Vurğulandığı kimi, bu məsələdə ABŞ-ın yeni prezidenti Donald Trampın mövqeyi əsaslı rol oynamaqdadır. Trampın yeni ildən Ukraynaya silah tədarükünün azaldılacağını, maliyyə yardımlarının minimuma endiriləcəyini və humanitar məqsəddən kənara çıxmayacağını deməsi müharibə ilə bağlı gözləntilərin üzərinə "su səpib".

### Ukrayna "yola gəlir"...

Artıq deyəsən Ukrayna da sülh və ya atəşkəslə bağlı təkliflərə "hə" deməyə hazırlaşır. Birinci mərhələdə müəyyən "şərtlərlə" danışmağa çalşan Kiyev sözdə özünün "təhlükəsizlik" məsələsini ön plana çıxarmağa çalışır. Belə ki, prezident Volodimir Zelenski podkastçı Leks Fridmana müsahibəsində Ukraynanın Rusiyanın gələcək hücumlarını dəf etmək üçün silahla təmin olunmaq şərti ilə atəşkəslə razılaşacağını bildirib. "Atəşkəs işə yarasa, heç kim bu silahlardan istifadə etməyəcək. Lakin ABŞ-a hörmətimizə baxmayaraq, əvvəlki kimi deyil, silahlar qalmalı olacaq", - o bildirib. Zelenski bildirib ki, o, münaqişənin başlanğıcında Qərbin silah təchizatının azalması ilə bağlı vəziyyətin təkrarlanmasını istəmir. Zelenski, həmçinin vurğulayıb ki, Ukrayna NATO-ya qoşularsa, alyans Kiyevin nəzarətində olan ərazilərdə fəaliyyət göstərə biləcək. O qeyd edib ki, bu barədə razılaşmaq olar.



### Maliyyə və hərbi yardımlar...

Vurğulanmalıdır ki, hələ 2024-cü ilin əvvəlindən ABŞ-da Ukraynaya yardım məsələsi əsaslı fikir ayrılığı yaratmışdı. Xüsusilə, Nümayəndələr Palatasında çoxluq təşkil edən respublikaçılar bu məsələdə daha radikal mövqedən çıxış edirdilər. Bildirilirdi ki, "Ukrayna ABŞ-ın hansısa bir ştatı deyil". Davam edən müharibənin isə hansısa nəticəyə yol açacağına ümid azalmışdı.

Statistik rəqəmlərə müraciət etsək, ABŞ 2022-ci ilin fevralında Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Ukraynaya əhəmiyyətli maliyyə və hərbi yardım göstərib. 2022-ci ilin fevralından 2024-cü ilin sonuna qədər ABŞ Ukraynaya təxminən 100 milyard dollara yaxın yardım ayırıb. Bu məbləğə hərbi, iqtisadi və humanitar yardımlar daxildir.

Yardımların hərbi strukturu da genişdir. ABŞ-ın Ukraynaya hərbi yardımı müxtəlif silah və texnikaları əhatə edir. Siyahıya nəzər salsaq, burada M1 Abrams tankları, Bradley piyada döyüş maşınları, HIMARS raket sistemləri, Patriot və NASAMS HHM sistemləri, MQ-9 Reaper pilotsuz uçuş aparatları və başqa silah-sursatın adını çəkə bilərik. Bayden administrasiyasının müharibənin daha da alovlanmasına xidmət edən bu addımları isə neqativ nəticələrə yol açıb. Bir neçə gündən sonra andiçmə mərasimi gerçəkləşdirəcək yeni prezident Trampın məsələyə baxışı fərqlidir.

Donald Tramp ABŞ prezidenti seçildikdən sonra Rusiya-Ukrayna müharibəsini tez bir zamanda bitirmək niyyətini ifadə edib. Onun planı Ukraynanın bəzi ərazilərinin Rusiyaya verilməsi müqabilində atəşkəs əldə etməyi nəzərdə tutur. Trampın müşavirləri NATO-ya üzvlüyün Ukrayna üçün mümkün olmayacağını və ərazi güzəştlərinin müzakirə edilə biləcəyini bildirirlər. Bu təkliflər müəyyən bir müddət həm Ukrayna hökuməti, həm də beynəlxalq ictimaiyyət tərəfindən tənqid olunsa da, son dövrlərdə bu plan ətrafında razılaşma sezilməkdədir. Bəzi analitiklər Trampın bu planının müharibəni tez bir zamanda bitirə biləcəyini düşünürlər.

### Avropa da razıdır...

Vurğulandığı kimi, Avropanın məsələyə münasibətində də dəyişikliklər hiss edilir. Məsələn, Almaniya və Fransa Trampın sülh planının Ukraynanın ərazi bütövlüyünə xələl gətirə biləcəyindən narahatlıq ifadə etsələr də, hər hansı bir sülh sazişinin Ukraynanın razılığı ilə olmasının əhəmiyyətini önə çəkirlər. Onların fikrincə, indiki mərhələdə atəşkəs gələcək üçün mühüm sülh təməli sayıla bilər. Ümumi mövqeyə gəldikdə isə, hazırda sülh üçün əsaslı şərtlərin ortaya çıxdığının tərəfdarı kimi çıxış edirlər...

***SADİQ***

# Avropanın Şərq planları...

## Soyuq Qərbin "isti Dəməşq" arzuları...

Bəşər Əsədin devrilməsi ilə Suriya yeni inkişaf mərhələsinə qədəm qoyub. Nəzərə alsaq ki, 2025-ci il bütün dünyada yeni münasibətlər sisteminin qurulmasını vəd edir, Yaxın Şərqdə də vəziyyətin tamam fərqli məcrada inkişaf edəcəyini indidən proqnozlaşdırmaq mümkündür. Əslində perspektiv tablo aydındır - Suriya yeni dövr üçün regional əməkdaşlıqları gücləndirmək, xüsusilə Türkiyə və Qətərlə əlaqələri daha da sıxlaşdırmaq fikrindədir. Təsadüfi deyil ki, Suriyanın yeni hökumətinin aparıcı simaları dəstəyinə görə Türkiyəyə bir neçə dəfə təşəkkürünü bildirib.

## Qərb Türkiyənin güc mərkəzi kimi möhkəmlənməsindən qorxur

### Regional əməkdaşlıqlar güclənir...

Türkiyə də öz növbəsində Suriyada yeni gələcəyin formalaşması, qaçqın probleminin həlli (Əsəd rejimindən qaçanların geri qayıtması üçün), infrastruktur quruculuğu və bu kimi proseslərdə aktiv iştirakını vəd edir. Türkiyə Milli Kəşfiyyat İdarəsinin (MİT) sədri İbrahim Kalın Dəməşqə səfər edib. Eyni zamanda, XİN başçısının bu istiqamətdə görüşləri reallaşıb. Dekabrın 29-da Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Suriyada keçid hökumətinin xarici işlər naziri Əssad Həsən Əş-Şibani ilə görüşüb Azərbaycanın yeni mərhələdə Türkiyə ilə birlikdə Suriyanın yanında olduğu bildirilib.

Paralel olaraq Suriyanın yeni hakimiyyətinin Qətərlə strateji tərəfdaşlıq haqqında razılığa gəlməsi haqda məlumat yayılıb. Suriyanın keçid hökumətinin xarici işlər naziri Əssad Həsən Əş-Şibani Qətər hökumətinin başçısı, xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdül Rəhman Əl Tani ilə danışıqların yekunu haqda deyib: "Humanitar yardım və strateji tərəfdaşlığa görə Qətərə bir daha təşəkkür edirik. Qətər Suriya xalqının keçdiyi çətin dövrdə bizim tərəfdaşımız olub və Suriyanın gələcəyinin qurulmasında tərəfdaşımız olacaq".

Əl-Şibaninin sözlərinə görə, danışıqlar zamanı Suriya nümayəndə heyəti Qətərin baş naziri ilə bütün strateji məsələləri müzakirə edib, həmçinin yeni Suriya dövlətinin qurulması və onun xarici siyasəti üçün yol xəritəsini təqdim edib. Nazir qeyd edib ki, bu yol xəritəsində bütün suriyalıların maraqlarını təmsil edən hökumətin formalaşdırılması da var.



### Tələsik və elan edilməmiş səfər...

Beləliklə, Yaxın Şərqdə yeni siyasi reallıqlar formalaşır. Bu isə özündə yeni siyasi prosesləri vəd edir. Təbii ki, baş verənlər bir sıra məqamlarına görə Qərbin maraq dairəsindədir. Ümumiyyətlə, Suriya hadisələri başlanan gündən etibarən Qərb, xüsusilə Avropa gözləmə mövqeyində dayanmağa üstünlük verirdi. Əsədin son günlərində hələ də onun hakimiyyətdə qala biləcəyini istisna etməyən Qərb paytaxtları susmağı "məsləhət" bilirdilər.

İndiki məqamda isə Qərbin üzü yenidən Şərqə doğrudur. Aİ-nin aparıcı "simaları" olan Almaniya və Fransanın xarici işlər nazirlərinin elan edilməmiş səfərlə Suriyaya gəlişi də bundan xəbər verir. Nazirlərin apardıqları danışıqların motivi bəllidir və ilk növbədə həmin ölkələrin Dəməşqdə bağlanan səfirliklərinin işə başlaması planlaşdırılır. Eyni zamanda, Ukrayna cəbhəsindən nəticə hasil edə bilməyən Avropa əlinə düşən fürsətdən istifadə edərək Rusiyaya qarşı iddialarını da məhz Suriya paytaxtından səsləndirir. Belə ki, Almaniyanın xarici işlər naziri Annalena Berbok Dəməşqə səfəri zamanı bildirib ki, Rusiyanın Suriyadakı hərbi bazalarını tərk etməsinin vaxtı çatıb.

### Avropa nə düşünürdü, nə tapdı...

Bu canfəşanlıq isə səbəbsiz deyil - Avropa ilk növbədə Türkiyənin regionda güc mərkəzi kimi möhkəmlənməsindən çəkinir. Şuşa Bəyannaməsi ilə Azərbaycanla strateji müttəfiq olan, TDT üzərindən isə Mərkəzi Asiya ilə əlaqələrini daha da gücləndirən Ankaranın ərəb dünyasında nüfuzunun artması Qərb üçün arzuolunmazdır. Onsuz da Avropa Türkiyə ilə Qətər arasındakı sıx münasibətlərdən hər zaman narahatlıq keçirdiyini bəlli edib. İndiki halda Türkiyənin Suriyada ön plana çıxması Qərbin planlarına ziddir. Bəllidir ki, Türkiyə Suriyada xüsusi hörmətə layiq görülür. Son illərdə milyonlardla suriyalı qaçqına ümid vermiş, sığınacaq yeri olmuş Türkiyə yeni mərhələdə də Dəməşqi tək buraxmayacağını vəd edib. Bu səbəbdəndir ki, avropalı nazirlər birbaşa Dəməşqə səfər planlaşdırıblar.

Amma planlar cızıldığı kimi getməyib - xüsusilə, Almaniyanın XİN başçısı ilə bağlı "şəkil qalmaqalı" Berlində narazılığa səbəb olub. Beləliklə, Avropa gözləmədiyi bir tablo ilə qarşılaşıb. Halbuki, Almaniya Xarici İşlər Nazirliyi bir müddət öncə Suriyada hakimiyyətin dinc yolla ötürülməsi ilə bağlı "xüsusi plan" hazırladığını bəyan etmişdi. Almaniya bəyan etmişdi ki, Əsədin devrilməsindən sonra Suriyaya dəstək vermək istəyir - ancaq bir şərtlə ki, əhalinin bütün qrupları siyasi proseslərdə iştirak etməlidir. Almaniya Xarici İşlər Nazirliyinin hətta "tərtib etdiyi" 8 bəndlik planda Suriyada "hakimiyyətin sülh yolu ilə ötürülməsi" ən mühüm hədəf kimi göstərilir. Amma görünən budur ki, Avropanın oxu Dəməşqdə də "daşa dəydi"...

***P.İSMAYILOV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Bizi birləşdirən dəyərlər...

## Gənclərdə milli mənlik şüurunun inkişafı vacibdir!

Hər bir millətin inkişafında gənclərin rolu kifayət qədər yüksəkdir. Bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların hazırlanmasından, aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə, həlledici məqamlarda nəyə qadir olduğunu təsdiqləyib.

Məlumdur ki, müxtəlif zamanlarda Ermənistanın ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə qarşı təcavüzünün qarşısının alınmasında vətənpərvər gənclərimiz öndə olublar. Zaman keçdikcə gənc nəsildə vətənpərvərlik, milli qürur hissləri daha da güclənib. Bildiyimiz kimi, torpaqlarımızın bir hissəsi 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında oldu. Bir milyondan çox soydaşımız isə qaçqın və məcburi köçkün vəziyyətində yaşadı. Bu fakt Azərbaycan gəncliyinin daha da ayıq-sayıq olmasına, onlarda vətənpərvərlik ruhunun yüksək səviyyədə inkişafına şərait yaratmışdı.

## Gənclərimizin milli-mənəvi dəyərlərimizə sadiqliyi

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən millət vəkili Azər Badamov bildirib ki, ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir: “Vətənpərvərlik amili gənclərin vətəndaş kimi formalaşmasında hər zaman öz gücünü göstərib. Gənclərin bu ruhda tərbiyə olunmasında Heydər Əliyevin müdrik kəlamı mühüm əhəmiyyət daşıyır: “Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir”.

Mənəvi şüurun formalaşmasında milli dəyərlər böyük rola malikdir. Bu dəyərlər mənəviyyatın kamilləşməsinin əsasıdır. Təsadüfi deyil ki, milli dəyərlər ali hisslər kimi, insanın fəaliyyətini stimullaşdıran amillər kimi qiymətləndirilir. Milli-mənəvi dəyərlər vətənpərvərlik müstəvisində formalaşaraq, insanın yaşam

> **“Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir”**

amalına çevrildə əsl vətəndaş yetişir. Qədim tarixi köklərə malik xalqımız milli dəyərləri əsrlərin süzgəcində cilalayaraq, bənzərsiz özünəməxsus zənginliyə malik milli dəyərlər yaradıb. Bu irs zaman-zaman böyüyən nəslin yaddaşına hopub, nəticədə milli-mənəvi dəyərlər xalqımızın mentalitetinə çevrilib. Öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq. Milli-mənəvi dəyərlər ruhunda formalaşmayan gənclik vətənpərvər ola bilməz. Çünki vətənpərvərlik milli-mənəvi dəyərlərimizin və azərbaycançılıq ideologiyasının əsas elementlərindən biridir. Bu baxımdan, son hadisələr Azərbaycan gəncliyinin həm də milli mənəvi dəyərlərimizə sadiqliyini nümayiş etdirdi. Milli-mənəvi dəyərlərimizin təbliği həm də radikalizmlə mübarizə çərçivəsində önəmli amillərdən biridir. Son illər yaşadığımız hadisələr bir daha göstərdi ki, bizim savaşacağımız yer də, şəhid olacağımız məkan da Vətəndir”.

## Azərbaycan gəncliyi öz sözünü dedi

Deputat qeyd edib ki, torpaqlarımızın 30 ilə yaxın düşmənin işğalı altında qalmasına baxmayaraq, Azərbaycan gəncliyi bununla barışmadı: “Dövlətimiz bu işğalın aradan qaldırılması üçün sülh yolunu illərlə təklif etdi, qan tökülməməsi üçün danışıqlar apardı. Amma qarşı tərəfin buna məhəl qoymaması, danışıqlara deyil, təxribatlara üstünlük verməsi fonunda 27 sentyabr 2020-ci il tarixində başlayan, 44 gün davam edən müharibədə Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, rəhbərliyi, Azərbaycan Ordusunun rəşadəti və xalqımızın birliyi, həmrəyliyi ilə Azərbaycan gəncliyi öz sözünü dedi. Məntiqi olaraq, Azərbaycanın zəfəri, qələbəsi ilə başa çatan müharibədə gənclərimizin şücaəti dillərdə dastan oldu və gəncliyimiz bütün dünyanın gəncləri üçün nümünə hesab olunur. Canını, qanını torpaqlarımız uğrunda əsirgəməyən gənclərimiz düşmənə igidlik, ərlik, ərənlik dərsi keçməklə yanaşı, milli mənlik ruhunun, vətənpərvərliyin nə olduğunu da başa saldılar. Bu, gənclərimizin millətinə, xalqına, torpağına, Ali Baş Komandanına olan inam və sədaqətin göstəricisi idi. Milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin, hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi sahəsində daha ardıcıl və davamlı işlərin aparılması vacibdir. Torpaqlarımızın 20 faizinin işğal aıtında olduğu vaxtlarda orta məktəblərdə milli şüurun formalaşması önəmli faktor hesab olunurdu. Ona görə də bu istiqamətdə sistemli tədbirlər keçirilirdi. Məhz bu işlər sayəsində ölkəmizdə milli mənlik şüuruna, vətənpərvərlik hisslərinə sahib olan gənclərlə yanaşı, həmin gəncliyi yetişdirən cəmiyyət də mövcuddur”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*




## “Nar” Yeni il sevincini ucqar kəndlərdə yaşayan uşaqlarla paylaşıb

“Nar” Yeni il bayramını uşaqlar üçün unudulmaz etmək üçün “Biz Birlikdəyik” sosial platformasının “Şaxta Baba ucqar kəndlərdə” layihəsinə əsas tərəfdaş olaraq dəstək verib.

Təşəbbüsün əsas məqsədi ucqar kəndlərdə yaşayan uşaqlara bayram əhval-ruhiyyəsi bəxş etmək, onların üzündə təbəssüm yaratmaqdır.

Təşəbbüs çərçivəsində “Biz Birlikdəyik” komandası vasitəsilə ucqar kəndlərdə yaşayan 1000-ə yaxın uşağa müxtəlif hədiyyələr təqdim edilib.

Sərfəli xidmətləri və sosial məsuliyyət təşəbbüsləri ilə bölgələrə ən yaxın mobil operator olan “Nar” bu sosial təşəbbüsə dəstək verməklə birlik, həmrəylik və qayğı dəyərlərinin güclənməsinə töhfə verir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Böyüklər də, kiçiklər də yoluxur...

## Son günlər tüğyan edən virus nədir?

Son zamanlar insanlar arasında müxtəlif növ viruslar yayılıb. Hazırda xəstəliyə yoluxan insanlarda hərarətin yüksəlməsi, halsızlıq, boğaz ağrısı, öskürək, burun tutulması, axması əlamətləri müşahidə edilir.

Xəstəlik artıq yerli səhiyyə sisteminə əhəmiyyətli yük yaradıb. Xəstəxanalara üşütmə, öskürək, boğazağrısı, həmçinin zəiflik və başgicəllənmə ilə xəstələr gətirilir. Eyni zamanda, Çində qrip A, mikoplazma pnevmoniyası və koronavirus kimi digər respirator viruslar da yayılır. Patogen ağciyərləri zədələyərək COVID-19 və qripə bənzər simptomlar yaradır.

## Metapnevmovirusla bağlı açıqlama

Səhiyyə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, hər il Şimal yarımkürəsində yerləşən ərazilərdə soyuq aylarda (əsasən dekabr-mart aylarında) mövsümi qrip (influenza) və digər kəskin respirator virus infeksiyalarının müxtəlif ştamları yayılır.

Qeyd olunub ki, rəsmi mənbələrdən alınmış məlumatlara əsasən, sözügedən xəstəliklərin daha bir təzahürü olan metapnevmovirus üzrə qeyri-stabil epidemioloji vəziyyət Çin, Qazaxstan və Rusiya Federasiyasında müşahidə olunur: “Metapnevmovirus mövsümi xarakter daşıyan qripəbənzər respirator xəstəlikdir. Bu virus bütün dünyada geniş yayılıb və kəskin respirator virus infeksiyalarının tipik patogenlərindən biridir. Metapnevmovirus bir çox digər kəskin respirator virus infeksiyalarına xas olan öskürək, burun tutulması, burun axması, hərarətin yüksəlməsi, nəfəs darlığı, səsin boğulması kimi simptomlarla təzahür edir.

Bu infeksiyaya əsasən kiçik yaşlı uşaqlar və immuniteti zəif olan şəxslər yoluxur. Virus yuxarı tənəffüs yollarında inkişaf edir və digər virus xəstəlikləri kimi adətən 7-10 gün ərzində aradan qalxır. İmmun sistemi zəif olan və ya yanaşı xəstəlikləri olan (məs., bronxial astma, ağciyərlərin xroniki xəstəlikləri) insanlarda bronxit və ya pnevmoniya ilə ağırlaşa bilər.

Bunu da qeyd etmək lazımdır ki, yanaşı xəstəlikləri olmayan şəxslərdə respirator infeksiyalar əsasən fəsadsız keçir, qısa müddət ərzində öz-özünə sağalma ilə nəticələndiyindən müalicə adətən simptomlara görə aparılır.

Belə xəstələrdə laborator müayinə nəticəsində virusun dəqiqləşdirilməsi müalicəvi yanaşma baxımından xəstə üçün heç nəyi dəyişmir. Beynəlxalq protokollara əsasən bu cür müayinələrin rutin aparılmasına ehtiyac yoxdur.

Ölkə ərazisində epidemioloji vəziyyətə nəzarət, epidemik dövrdə qripin hansı ştamlarının dövr etməsini müəyyən etmək üçün Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin müvafiq laboratoriyasında xəstələrin burun-udlaq nahiyəsindən götürülmüş yaxmaların molekulyar üsulla (PZR) müayinəsi aparılır.

Əhalinin sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi xüsusilə yüksək həssaslığa malik şəxslərə kütləvi tədbirlərdə və insanların sıx toplaşdığı məkanlarda tənəffüs yollarını qoruyan fərdi qoruyucu vasitələrdən (tibbi maskalardan) istifadə, həmçinin əl gigiyenasına riayət etməyi, gündəlik qidalanma rejiminə bol vitaminli ərzaqların daxil edilməsini tövsiyə edir. Hər hansı respirator simptomları olan şəxslərin ev şəraitində simptomatik müalicə alması məqsədəuyğun hesab olunur.

Bununla yanaşı, respirator virus infeksiyaları üzrə risk qrupuna daxil olan şəxslərin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən elan olunmuş qrip əleyhinə vaksinasiyadan keçməsi tövsiyə olunur.

Hər bir vətəndaş sağlamlığına xüsusi diqqət və məsuliyyətlə yanaşmalı, özünü və ətrafındakıları infeksiyalara yoluxmadan qorumalıdır”.

## Uşaqlar arasında virus

Elmi-Tədqiqat Pediatriya İnstitutunun pediatrı Səbinə Cəfərova bildirib ki, hər il olduğu kimi, bu il də mövsümlə əlaqədar uşaqlar arasında mövsümi virus infeksiyalarının qeydə alınması müşahidə olunur. Bu da tənəffüs yolu infeksiyalarına səbəb olan virus və bakteriyalardır.

## 7 günə qədər davam edir...

Onun sözlərinə görə, əsas simptomlar arasında 7 günə qədər davam edən yüksək hərarət, boğaz ağrısı, öskürəkdir: “Virus infeksiyaları hava damcı yolu ilə keçdiyindən ilk növbədə tibbi maskalardan istifadə, gigiyenik qaydalara riayət edilməlidir, insanların kütləvi toplandığı yerlərdən uşaqlar uzaq tutulmalıdır. Evdə xəstə uşaq varsa, digər şəxslərlə ünsiyyət minimuma endirilməlidir. Qızdırma salmaq üçün təbii üsullardan istifadə tövsiyə olunur. Çoxlu maye qəbulu, yüksək kalorili və bol vitaminli qidalar, eyni zamanda meyvə-tərəvəz yeyilməsi vacibdir”.



## Əlamətləri bir-birinə bənzəyir

İnfeksionist Vüqar Cavadzadə “Yeni Azərbaycan”a bildirib ki, ölkəmizdə yayılan xəstəliyin metapnevmovirus olduğunu demək çətindir. İnfeksionist qeyd edib ki, bunun üçün mütləq rəsmi qurumlar rəsmi açıqlama verməlidir: “İstənilən infeksion xəstəliyə diaqnoz mütləq olaraq laborator müayinə metodlarına əsaslanmalıdır. Bu metapnevmovirusa da diaqnoz qoymaq üçün mütləq PSR müayinəsini nəticəsi lazımdır.

Metapnevmovirus isə kəskin respirator virus infeksiyasılarıdır. Onların hamısının əlamətləri bir-birinə bənzəyir. Məsələn, qrip, koronovirus, paraqrip və s. Bu, sadəcə infeksiyadır və mövsimi xarakter daşıyır. Ümumi olaraq infeksiyalarda qış-yaz aylarında artım müşahidə edilir. Ola bilsin ki, Çində də bu infeksiyalarda da artım müşahidə edilib. Ümumi deyə bilərəm ki, ölkəmizdə yayılan mövsümi xəstəlikdir. Payız, qış, yaz ayları kəskin respirator virus infeksiyalarının yayılma dövrüdür”.

## Təşvişə əsas yoxdur...

İnfeksionistin sözlərinə görə, bu infeksiyalara qış aylarında daha çox rast gəlinir: “Adicə qripin bir neçə streotipi xəstəlik törədə bilər. Rast gəlinənlər qripin müxtəlif streotipləridir. Hesab etmirəm ki, bizim ölkədə bu virus var. Bu, dünya üçün yeni bir virus olmadığından, təşvişə əsas yoxdur. Çünki Çində təzə yayılmağa başlayıb. Əslində bu virus Çində də yeni deyil. Virus 2001-ci ildə Hollandiyada uşaqlar arasında tənəffüs yolu infeskiyalarına yoluxmalar nəticəsində kəşf olunub. Bu, cəmiyyət üçün yeni bir virus deyil. Ümumiyyətlə, metapnevmovirusların quşlar və insanlar arasında müxtəlif növləri var”.

## Nə üçün sağalma gec baş verir?

Həkimin sözlərinə görə, son günlər müşahidə olunan simptomların ağır keçməsi, sağalma prosesinin gec olması bir neçə faktora bağlıdır: “Yüksək təsirli yeni virus orqanizmin zəifləməsi, daha çox yayılma, quru öskürəklə müşahidə olunur. Xəstəliyin yüksək təsirli olması da məhz sağalmanın müddətini uzadır. Bu səbəbdən qripə qarşı vaksinasiyanın vacibliyi və xəstəliyə tutulanların müalicə üçün vaxtında həkimə müraciət etməsi önəmlidir”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 2914
Sifariş: 3010
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova